Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 106 (23.518)

7 iyul 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak ediblər.

Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verərək bildirib ki, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin modul tipli hospitalı 10 korpusdan ibarətdir və burada 800 xəstəni qəbul etmək üçün hər cür imkan var. Modul tipli hospitalda yaradılan şərait müalicə işi ilə yanaşı, laborator müayinələri də qısa müddətə və keyfiyyətlə aparmağa imkan verir. Belə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən ölkə ərazisində, ümumilikdə, 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanıldı ki, onlardan da bir neçəsinin artıq açılışı olub. Ümumilikdə, yaradılacaq modul tipli xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır.

Tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" Televiziyasına müsahibə verib.

"İxrac ili" – 2020

Naxçıvan məhsullarının ixrac imkanları artmaqdadır

Ölkəmizin ixrac məhsulları çoxdur. Müasir dövrdə ixrac olunan brend məhsullar ölkəmizi xarici bazarlarda tanıtmaqla valyuta ehtiyatlarımızın artımında da mühüm əhəmiyyətə malikdir. Bundan əlavə, xarici bazarlarda hamının tanıdığı brend məhsul onun sahibi olan ölkədəki keyfiyyətə ciddi nəzarətdən və işgüzarlıqdan xəbər verir. Bu baxımdan müstəqil Azərbaycanın tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının müasir ixrac potensialı da diqqəti cəlb edir.

Muxtar respublikada 2020-ci ilin "İxrac" ili elan olunması istehsal olunan məhsulların ixrac imkanlarını artırmış, iqtisadi əlaqələri genişləndirmişdir.

Bu gün muxtar respublikada fəaliyyət istiqamətinə görə çoxsaylı müəssisələr ixrac qabiliyyətinə malikdir. Naxçıvanda fəaliyyət göstərən şirkətlərə xarici bazarlara çıxışın təmin edilməsi üçün ixrac təşviqlərinin verilməsi, eyni zamanda onlara dəstək mexanizmlərinin tətbiqi dairəsi genişləndirilir. Həmçinin qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar məhz buradan təmin olunur.

Yerli məhsulların xarici bazarlarda tanıdılması və işgüzar əlaqələrin genişləndirilməsi məqsədilə 2020-ci ilin ötən dövründə 4 sahibkarlıq subyektinin 17 nümayəndəsinin 3 beynəlxalq əhəmiyyətli tədbirdə iştirakı təmin olunmuş, eləcə də muxtar respublikada istehsal olunan ərzaq məhsulları Moskva və Dubay şəhərlərində keçirilmiş nüfuzlu beynəlxalq qida sərgilərində nümayiş olunmuşdur. Bu sərgilərdə "Made in Azerbaijan" vahid ölkə stendi altında muxtar respublikada istehsal olunan 133 çeşiddə məhsulun nümayişi həyata keçirilmişdir.

Naxçıvandakı müəssisələrin bir çoxu artıq xarici bazarlarda özünə yer tutmağa başlayıb. Belə ki, bu gün muxtar respublikada fəaliyyət göstərən "Naxçıvan Şərab" MMC-nin məhsulları Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Türkiyə, Almaniya, Polşa, Çexiya, Litva, Latviya, Estoniya, Moldova, Belarus, Çin, Yaponiya, Cənubi Koreya, Kanada, ABŞ, Avstraliya, Yeni Zelandiya, Fransa, Niderland, Belçika, Danimarka, İsveç, Norveç, Finlandiya, Avstriya, İsveçrə, Böyük Britaniya, İrlandiya, İspaniya, Portuqaliya, İtaliya, Monako, Yunanıstan, Kipr, Malta, Serbiya, Monteneqro, Bosniya və Herseqovina, Xorvatiya, Slovakiya, Macarıstan, Rumıniya, Bolqarıstan, Albaniya, Makedoni

Kənd təsərrüfatı iqtisadiyyatın aparıcı sahəsidir

İlin elə bir vədəsidir ki, indi diyarımızın hər tərəfində canlanma yaranıb, texnikaların səsi təbiətin sakitliyini pozub. Əkin sahələrində, təsərrüfatlarda, tarlalarda, meyvə bağlarında aparılan əkin-biçin işləri, becərmə tədbirləri gələcəyin bol nemətinə, muxtar respublikanın çoxdan əldə etdiyi ərzaq təhlükəsizliyinə bir daha əminlik yaradır. Zəhmət adamlarının bu cür həvəslə işlədiyini görəndə belə bir xalq deyimi yadıma düşür: "Pis torpaq yoxdur, pis əkinçi var".

Bəli, torpaq hər zaman yerində durub. Onu əzizləsən, uşaq kimi nazını çəksən, o da bərəkətə gəlib sənə öz nemətlərini təqdim edəcək. Ömründə bir daşa külüng vurmayan adamın torpaqdan bəhər ummağa gərək üzü olmasın. Necə deyərlər, torpaq kənd adamlarının, zəhmətkeşlərin çörəkağacıdır. Ona tər axıdan çöreksiz qalmaz. Çox uzağa getməyək, sadə bir misal gətirək. Ötən əsrin sonlarında da bu torpaqlar var idi. Hər kəs onlara qupquru, susuzluqdan cadar-cadar olmuş, istifadəyə yararsız ərazilər gözü ilə baxırdı. İstifadəyə yararlı təsərrüfatlar isə zəhmətkeşlərin əziyyətinin qarşılığını vermirdi. Həmin vaxtlar kəndlərdən, torpaqdan küsüb başqa yerlərə üz tutanlar az olmayıb. Çünki kolxozun aylıq məvacibi çəkilən zəhməti ödəmirdi. Torpaq xalqın milli sərvəti, elin var-dövlətidir. Təəssüf ki, sovetlər dövründə bu müqəddəs əmanət 1969-cu ilədək həqiqi sahibindən uzaq salınmış, baxımsızlıq üzündən minlərlə hektar torpaq dövriyyədən çıxarılmışdı. Məhz həmin ərazilər son illər dövlətimizin həyata keçirdiyi ardıcıl və məqsədyönlü islahatlar nəticəsində ucsuz-bucaqsız əkin sahələrinə, tarlalara, meyvə bağlarına, yaşıllıq zolaqlarına – kəndlinin əsl çörəkağacına çevrilib.

Bütün bunlar öz başlanğıcını ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda təməlini qoyduğu torpaq islahatlarından götürüb və sonrakı illərdə bəhrəsini verib. Belə ki, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun 1996-cı ildə qəbul edilməsinə baxmayaraq, bu məsələnin təməli hələ ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi dövrdə qoyulub. 1992-ci ildə Culfa rayonunun Şurud və Gal kəndlərindəki torpaqların kəndlilərə verilməsi, nəinki muxtar respublikamızda, bütövlükdə ölkəmizdə uğurlu aqrar islahatların başlanğıcı oldu. Bu pilot layihənin uğurlu nəticəsinin ardınca ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə torpaq islahatı proqramı hazırlandı. Bu proqram əsasında torpaq islahatlarının aparılmasını təmin edən hüquqi baza yaradıldı. Həmin dövrdən qəbul edilən 52-dən çox fərman, qanun və digər normativ-hüquqi aktlar Azərbaycanda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı və Naxçıvan Muxtar Respublikasında bünövrəsi qoyulan torpaq islahatları bütün ölkədə tətbiq edilməyə başlandı.

Qeyd edək ki, "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 yanvar tarixli Fərmanından sonra islahatların sürətlə həyata keçirilməsinə start verildi. Nəticədə, respublikamızda mövcud olmuş 2032 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək onların tabeliyində olan əkinəyararlı münbit torpaqları əhaliyə paylandı. Həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq 2000-ci ildə muxtar respublikada torpaq islahatı başa çatdırıldı. Nəticədə, 72 min 758 ailəyə torpaq sahəsi verildi.

Ötən dövrdə muxtar respublika üzrə 205 kənddə olan 132 təsərrüfatda torpaq islahatı aparılıb, 241 mindən artıq vətəndaş kənd təsərrüfatı təyinatlı torpaq sahəsi ilə təmin edilib. 70 mindən çox ailənin aqrar islahatdan bəhrələnərək torpaq mülkiyyətçisinə çevrilməsi muxtar respublikada ailə təsərrüfatlarının formalaşmasına, əhalinin ərzaq və digər zəruri kənd təsərrüfatı məhsulları ilə təminatının yüksəlməsinə geniş imkanlar yaradıb. Kəndli torpağının əsl sahibinə çevrildikdən sonra məskunlaşma və məşğulluq dinamik göstəricilər üzrə inkişaf etməyə başladı. Bundan sonra kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaradıldı, bol məhsul istehsalının əsası qoyuldu.

Bütün bunlar isə əbəs yerə deyil. Çünki muxtar respublika iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Əhalinin böyük əksəriyyəti kənd yaşayış məntəqələrinin sakinidir. Buna görə ulu öndərimizin miras qoyduğu uğurlu aqrar islahatlar sonrakı dövrlərdə də davam etdirildi və bu günkü yüksək inkişaf dövrünə qədəm qoyuldu.

Nəticədə isə bu gün ən ucqar yaşayış bölgələrimizdə belə, kənd təsərrüfatının müxtəlif sahələri inkişaf edir, o cümlədən ayrı-ayrı təsərrüfat sahələri yaranır. İndiyədək muxtar respublikada bu sahənin inkişafı üçün bir çox dövlət proqramları qəbul edilərək uğurla icra olunub. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası və hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" birbaşa və yaxud əsas etibarilə, muxtar respublikada kənd təsərrüfatının inkişafına hesablanıb.

Fermerlərə taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub. Ötən 25 ildə kənd təsərrüfatının ümumi məhsulu 13 dəfədən çox artıb. Təkcə ötən ilin məhsul yığımına nəzər saldıqda da əldə olunan nailiyyətləri təsdiqləmiş olarıq. 2019-cu ildə bir il öncəyə nisbətən 4,5 faiz çox, yəni 507 milyon 641 min 600 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Statistik göstəricilərə "İxrac ili"ndə də aqrar sektor üzrə mühüm nəticələrin əldə olunacağını təsdiqləyir. Bu ilin ilk beş ayının nəticələri də bunu deməyə əsas verir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin ilk beş ayında kənd təsərrüfatı məhsulu 2,5 faiz artıb. Başqa sözlə, bu ilin ilk 5 ayında 29 milyon 652 min 800 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Günümüzdə 108 növdə zəruri ərzaq məhsuluna tələbat tamamilə yerli istehsal hesabına ödənilir, ərzaq təhlükəsizliyi təmin edilir.

Təbii ki, müasir dövrdə kəndlini, torpaq adamını müasir texnikasız təsəvvür etmək çox çətindir. Buna görə də məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2020-ci ilin yanvar-aprel aylarında 96, ümumilikdə, isə 2835 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. Cari ilin ilk 5 ayında 70 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilib, 2-si nağd yolla satılıb. Bu dövrdə məhsul istehsalçıları 9 min tondan çox mineral gübrə ilə təmin olunub.

Kənd təsərrüfatı və əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdən biri də, təbii ki, suvarma sistemlərinin təkmilləşdirilməsidir. Son illər qapalı suvarma şəbəkələrinin qurulması muxtar respublikamızda uzun illər əkilməyən geniş ərazilərin əkin dövriyyəsinə qatılması və on minlərlə hektar ərazinin suvarma suyuna olan tələbatının ödənilməsi baxımından qazanılan mühüm uğurlardandır. 2015-ci ildə Vayxır sol sahil kanalından qidalanan və 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi, 2016-cı ildə Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilib. Ötən bir neçə ildə Kəngərli rayonunun bir sıra kəndlərini əhatə edən yeni suvarma şəbəkələri qurulub, əvvəllər susuzluqdan şoranlaşmış bu ərazilərin suvarma işləri yaxşılaşdırılıb. Ümumilikdə, götürsək, son 25 ildə 22 min hektara yaxın yararsız torpaq sahəsi münbitləşdirilərək əkin dövriyyəsinə daxil edilib. Başqa sözlə, 2020-ci ilin əvvəlinə muxtar respublika üzrə suvarılan torpaq sahələri 62 min 231 hektara çatdırılıb. Bu da kənd təsərrüfatına yararlı torpaq sahələrinin 35 faizini təşkil edir. 1995-ci illə müqayisədə suvarılan torpaq sahələri 6564 hektar artıb. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikanın Babək, Culfa, Kəngərli və Şahbuz rayonlarında 5 min hektara yaxın torpaq sahəsində qapalı suvarma şəbəkələri qurulub, su təminatı olmayan və uzun müddət əkilməyən torpaqlar yenidən əkin dövriyyəsinə qatılıb. Bu ilin birinci rübündə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, Şahbuz rayonunun Türkeş, Sələsüz və Mərəlik kəndlərinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb.

Son illər iritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində daxili bazarın tələbatının ödənilməsinə imkan verir. Bu işlərin davamı olaraq 2020-ci ilin yanvar-aprel aylarında tutumu 2500 ton olan daha bir 1 soyuducu anbar yaradılıb, 1 soyuducu anbar isə genişləndirilib. Daha 2 soyuducu anbarın qurulması istiqamətində işlər davam etdirilir. Bu dövrdə 2 istixana təsərrüfatı yaradılıb. 1 istixana təsərrüfatının fəaliyyətinin bərpası nəzərdə tutulub.

Dövlətimizin kənd təsərrüfatının mühüm sahələrindən olan heyvandarlığın inkişafına dəstək göstərməsi isə fermer və ailə təsərrüfatlarının inkişafına rəvac verir. Hazırda muxtar respublikanın ayrı-ayrı bölgələrində heyvandarlıq profilli müxtəlif təsərrüfatlar fəaliyyət göstərir. Bu sahənin inkişafı 2020-ci ilin ilk beş ayında da diqqətdə saxlanılıb, 16 heyvandarlıq təsərrüfatının yaradılması, 5-nin isə genişləndirilməsi başa çatdırılıb. Bu tədbirlər məhsul istehsalının artmasına mühüm təsirini göstərir. Belə ki, cari ilin yanvar-aprel aylarında muxtar respublikada diri çəkidə 8060,3 tondan çox ət, 26090,4 tondan artıq süd istehsal olunub. Bu göstəricilər 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı üzrə 1,5 faiz, süd istehsalı üzrə isə 1,6 faiz artıb.

Davamlı xarakter alan tədbirlərə uyğun olaraq hazırda 12 heyvandarlıq təsərrüfatının yaradılması, 7-nin genişləndirilməsi işləri həyata keçirilir. Ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə yanvar-aprel aylarında 3 milyon 592 min 400 manat kredit verilib. Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə 2 quşçuluq təsərrüfatının yaradılması, 1-nin isə genişləndirilməsi işləri davam etdirilir.

Heyvandarlıq məhsulları istehsalında daha yüksək göstəricilərin əldə edilməsi diqqət mərkəzindədir. Bu məqsədlə heyvandarlıqda mühüm amil olan mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində işlər daim diqqətdə saxlanılır. Cari ilin ilk beş ayında heyvandarlıq təsərrüfatlarında 2543 baş inək, düyə və camış süni yolla mayalandırılıb, ötən ildə mayalandırılmış inək, düyə və camışlardan 3246 baş sağlam bala alınıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzinin yaradılması gələcəkdə heyvanların cins tərkibinin yaxşılaşmasına öz töhfəsini verəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 8 yanvar tarixli Fərmanı ilə yaradılmış Aqrar Sığorta Fondu muxtar respublikamızda kənd təsərrüfatının inkişafı istiqamətində aparılan tədbirlərin davamı kimi mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş sığorta predmetləri üzrə müəyyənləşdirilmiş sığortahaqqının 50 faizi dövlət vəsaiti hesabına, qalan 50 faizi isə istehsalçının öz şəxsi vəsaiti hesabına ödəniləcək. Nəticə olaraq min bir zəhmətə qatlaşıb məhsul əldə etməyə çalışan təsərrüfatçılar özlərini baş verə biləcək bütün risklərdən qoruya biləcəklər.

Muxtar respublikada əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatını qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamını xüsusi vurğulamaq yerinə düşər. Sərəncama əsasən "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib. Bu proqramın icrası muxtar respublikada sağlam heyvandalıq məhsullarının istehsalına böyük töhfə verəcək.

Arıçılıq da qədimdən bəri yerli sakinlərin mühüm məşğuliyyət sahələrindəndir. İqtisadi cəhətdən yüksək gəlirgətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib. Cari ilin ilk beş ayında bu sahədə müvafiq tədbirlər görülüb, daha 5 yeni arıçılıq təsərrüfatı yaradılıb. Üç belə təsərrüfatın yaradılması, 2-nin genişləndirilməsi işləri isə davam etdirilir. Təkcə 2020-ci ilin ilk beş ayında belə təsərrüfat subyektlərinə 77 min 800 manat kredit verilib.

Bəli, kənd adamı yüksək qayğı əhatəsində öz torpağından, necə deyərlər, ikiəlli yapışıb, təsərrüfatını qurub, genişləndirib, inkişaf etdirib. Əbəs yerə deyil ki, artıq Naxçıvanda "Ailə təsərrüfatı" adlı model formalaşıb. Yeri gəlmişkən qeyd edək ki, 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi bu sahənin inkişafına stimul verən daha bir məqsədyönlü addım oldu. İndi ailə təsərrüfatçılarımız ciddcəhdlə "İxrac ili"nə öz töhfələrini verməyə çalışırlar. Nəticə isə göz qabağındadır. Bu cür etibarlı ərzaq təminatı sisteminin yaradılması bir zamanlar idxalçı Naxçıvanı indi ixrac edən bir diyara çevirib. Digər sahələrlə yanaşı, aqrar sahədə də bunun şahidi oluruq. Təkcə 2020-ci ilin beş ayında muxtar respublikadan 12 milyon 153 min 500 ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac olunub.

Bütün bunlar bir daha təsdiq edir ki, muxtar respublikada kənd təsərrüfatı iqtisadiyyatın əsas özəyini təşkil edir. Buna görə də etibarlı və sağlam gələcək naminə aqrar inkişaf davamlı xarakter daşıyır və bu sahədə yaradılmış baza növbəti illərdə daha mühüm nailiyyətlərin qazanılmasına töhfə verəcək.

✍ **Gülcamal TAHİROVA**

Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.

Peşə hazırlığının düzgün təşkili özünüməşğulluğun təmin edilməsinə xidmət edir

Müasir şəraitdə respublikamızda sosial-iqtisadi inkişafa nail olmaq və mövcud inkişafın dayanıqlığını təmin etmək düzgün iqtisadi siyasət nəticəsində mümkün olmuşdur. Ölkənin şəhər və rayonlarında istifadəyə verilən müəssisələr, bu sahədə həyata keçirilən kompleks tədbirlər iqtisadiyyatda bir sıra dəyişikliklərə səbəb olmuş və əmək bazarında ixtisaslaşmış işçi qüvvəsinə olan tələbi artırmışdır.

Son dövrlərdə regionlarda sənaye məhəllələrinin və yeni istehsal sahələrinin yaradılması, istehsal və emal müəssisələrinin açılması onu deməyə əsas verir ki, beynəlxalq iqtisadi inteqrasiya üçün müxtəlif peşələrə uyğun mütəxəssislərə ehtiyac artır. Bu gün muxtar respublikanın sosial-iqtisadi inkişafı baxımından Dövlət proqramlarının reallaşdırılması nəticəsində məqsədyönlü islahatlar həyata keçirilir. İqtisadiyyatın davamlı inkişafı keyfiyyətli işçi qüvvəsinin formalaşmasını tələb edir və əmək bazarına uyğun kadr hazırlığının həyata keçirilməsi zərurətini yaradır.

Həyata keçirilən məqsədyönlü siyasətin ən mühüm göstəricilərindən biri əhalinin məşğulluğunun təmin olunması, bununla da yaşayış şəraitinin yaxşılaşdırılmasıdır.

Muxtar respublikada quruculuq və abadlıq işləri milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınmaqla inşa edilir. Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi respublikamızda əsas prioritet sahələrdəndir. Bütün bunlar ixtisaslı kadrlara, o cümlədən peşə sahiblərinə tələbatı artırır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmaqdadır. Dövlət proqramının icrasına uyğun olaraq təkcə ötən il muxtar respublikada 3250 yeni iş yeri yaradılıb.

Uğurla reallaşdırılan Dövlət proqramları əsasında muxtar respublikanın sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq digər sahələrlə bərabər peşə təhsilinin inkişafı da diqqətdə saxlanılıb. Bu nöqteyi-nəzərdən ölkəmizdə, o cümlədən muxtar respublikamızda son dövrlərdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas hədəflərindən biri də kadrların hazırlığının səmərəliliyinin artırılması olmuşdur. Hazırda aparılan təhlillər göstərir ki, texniki-peşə təhsili təhsil sisteminin aparıcı istiqaməti olmaqla, bazar iqtisadiyyatının tələblərinə uyğun ixtisaslı kadrlara tələbatın ödənilməsində əsaslı rol oynayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov peşə təhsilinə yüksək qiymət verərək demişdir: ***"Peşə təhsili hər bir ölkə üçün ali təhsil qədər əhəmiyyətlidir. Çünki iqtisadiyyatın bütün sahələrində ali təhsilli mütəxəssislərlə yanaşı, peşə ixtisası olan kadrlara da böyük tələbat vardır".***

Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsində ümumi daxili məhsulda özəl bölmənin payı 92 faizdən artıqdır. Hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sözsüz ki, sahibkar öz bazarının davamlılığını və keyfiyyətini təmin etmək üçün kadr seçərkən daha yaxşısına, işinin öhdəsindən gələ biləninə üstünlük verəcəkdir. Bazar iqtisadiyyatının tələblərinə uyğun düzgün peşə seçimi həm sahibkar, həm də kadr üçün əsas amillərdəndir.

Texnoloji dəyişikliklər nəzərə alınmaqla yüksək keyfiyyətə nail olmaq üçün ixtisasartırma kurslarının da əhəmiyyətini qeyd etmək olar ki, bu da əksər peşələr üçün çox əhəmiyyətlidir.

Hazırda əhalinin məşğulluğunun təmin olunmasında muxtar respublika ərazisində fəaliyyət göstərən məşğulluq mərkəzləri və keçirilən əmək yarmarkaları da əsaslı rola malikdir. Əhalinin məşğulluğunun təmin olunması məqsədilə muxtar respublikada ailə təsərrüfatlarının yaradılmasına dövlət tam dəstək verir.

Muxtar respublikada sağlam təhsil mühitinin yaradılması gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların, həmçinin özəl sektorun ixtisaslı kadrlarla təminatına öz müsbət təsirini göstərir. Belə ki, Naxçıvan, Şərur və Ordubad şəhərlərində Texniki Peşə və Sürücülük məktəbləri, Naxçıvan şəhərində Peşə Liseyi və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Naxçıvan Regional Peşə Tədris Mərkəzi fəaliyyət göstərir. Bu təhsil müəssisələri ən yeni texnologiyalarla, elektron lövhələr, kompüter dəstləri ilə təchiz olunub, emalatxanalar yaradılıb. Bütün bunlar gənclərin keyfiyyətli təhsil almalarına zəmin yaradır. Hazırda peşə təhsili və peşə hazırlığı proqramları əmək bazarının, o cümlədən işəgötürənlərin tələblərinə uyğun ixtisaslar üzrə kadr hazırlığını həyata keçirir.

Ötən il Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində, ümumilikdə, 4080 nəfər müxtəlif peşələrə yiyələnib.

Dövlət proqramlarının icrasına uyğun olaraq muxtar respublikada xalq tətbiqi və milli xalçaçılıq sənəti ənənələrinin inkişaf etdirilməsi üçün müxtəlif vaxtlarda qalayçı, misgər və tənəkəçi, ağac üzərində oyma, toxucu, keçəçi və xalçaçı peşələri üzrə də kurslar təşkil edilib. Dərzi sexləri, bərbərxana və qadın gözəllik salonlarında çalışmaq istəyən şəxslər müəyyənləşdirilərək müvafiq peşələr üzrə kurslara cəlb olunub. Müasir dövrə uyğun sahələrdən bələdçi, ofisiant, lift mexaniki, fotoqraf, videooperator, aşpaz köməkçisi, çörəkçi, qazanxana maşinisti, qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşə kurslarının təşkilinə xüsusi önəm verilib.

Muxtar respublikada işaxtaran və işsiz vətəndaşların peşə hazırlığı, yenidən hazırlığı və ixtisaslarının artırılması sahəsində fəaliyyəti tənzimləmək məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzi də fəaliyyətini günün tələbləri səviyyəsində davam etdirir. Ötən il burada təşkil edilmiş kurslara 6 ixtisasartırma olmaqla, 21 ixtisas üzrə 402 nəfər, cari ildə isə 1 ixtisasartırma olmaqla, 5 ixtisas üzrə 79 nəfər cəlb edilmişdir. Kursu uğurla bitirmiş müdavimlərin, xüsusilə sağlamlıq imkanları məhdud və hərbi xidmətdən yeni tərxis olunan şəxslərin işlə təminatı diqqətdə saxlanılır. Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində xidmət və milli tətbiqi sənət sahələri üzrə təşkil olunmuş kurslara ötən il 18 məhkum cəlb edilib.

Peşə hazırlığı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında işaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"na əsasən tənzimlənir. Naxçıvan Regional Peşə Tədris Mərkəzində bu qaydalara əsasən peşə hazırlığı peşə təhsilinin dövlət standartlarına uyğun olaraq təşkil edilir və kurslarda təhsil müddəti 3 aya qədərdir. Peşə hazırlığının təşkili zamanı üç ildən artıq işləməyənlər, peşəsi (ixtisası) olmayanlar üstün hüquqa malikdirlər. Onu da qeyd edək ki, burada işsiz şəxslərin peşə hazırlığı ödənişsiz təşkil olunur. İşsiz kimi qeydiyyata alınmış şəxslər Dövlət Məşğulluq Xidmətinin şəhər, rayon məşğulluq orqanlarının göndərişi ilə peşə hazırlığı aldığı dövrdə aylıq təqaüd almaq, onlar üçün nəzərdə tutulmuş infrastrukturdan istifadə etmək hüququna malikdirlər. Təhsilini başa çatdırmış və ixtisas imtahanını müvəffəqiyyətlə vermiş müdavimlər təhsil haqqında dövlət sənədi, yəni sertifikatla təmin edilirlər.

Bütün bunlara əsaslanaraq demək olar ki, əmək bazarının tələbinə uyğun peşə seçimi öz peşəsini sevərək inkişaf etdirməklə bir mütəxəssis kimi formalaşmaq baxımından əsas ola bilər. Bəzi gənclərimiz zərərli vərdişlərdən kənarlaşıb, mövcud imkanlardan səmərəli istifadə edərək müxtəlif peşələrə yiyələnməklə məşğulluqlarını yüksək səviyyədə təmin edə bilərlər. Bunun üçün muxtar respublikamızda hər cür şərait vardır, qalır yaradılan şəraiti düzgün qiymətləndirərək vaxtı və zəkanı düzgün istiqamətə yönləndirmək.

Vüsal SÜLEYMANLI
Naxçıvan Muxtar Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında
Dövlət Məşğulluq Agentliyinin direktoru

Gənclərin asudə vaxtı səmərəli təşkil olunur

Ötən ay ərzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin "Instagram" səhifəsində karateçi, beşqat dünya çempionu Rafael Ağayev və kinorejissor Tahir Əliyevlə canlı yayımlar təşkil olunmuş, Naxçıvan şəhərindəki Sahil Parkında "III Art Battle" (İncəsənət döyüşü) adlı rəsm müsabiqəsi, gənclər arasında "Axtar tap" və "Labirint" intellektual oyunları keçirilmişdir. Gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi, onlarda mütaliəyə marağın artırılması məqsədilə "Zoom" proqramı vasitəsilə "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil olan "Qutadqu bilik" kitabının müzakirəsi təşkil olunmuş, "Mütaliədən qalma!" aksiyası davam etdirilmişdir.



18 yaşadək fiziki imkanları məhdud uşaqlar arasında açıq səma altında boccia idman növü üzrə muxtar respublika birinciliyi, 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında yüngül atletikanın qaçış növü üzrə birincilik, 26 İyun – Silahlı Qüvvələr Günü ilə əlaqədar Sədərək rayon komandası ilə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandası arasında voleybol, "Naxçıvan" komandası ilə "Lokomotiv" komandası arasında basketbol üzrə yoldaşlıq görüşləri, gənclər arasında süni divara dırmanma, hüquq-mühafizə orqanlarının əməkdaşları arasında atıcılığın stend növü üzrə muxtar respublika birinciliyi keçirilmiş, Uzunoba gölünün ətrafında çimərlik futbolu meydançası tikilərək istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası
Gənclər və İdman Nazirliyinin
mətbuat xidməti

Naxçıvan Dövlət Universiteti və Almaniyanın Brandenburq Universiteti Konservatoriyalarının birgə təşkilatçılığı ilə onlayn ustad dərsi keçilib. "Vyana klassiklərinin əsərlərinin müxtəlif interpretasiyaları" mövzusunda dərsi Brandenburq Universiteti Konservatoriyasının professoru, pianoçu Veronika Glemser keçib.

Almaniyalı pianoçu tələbələrə onlayn ustad dərsi keçib

Universitetin rektoru Elbrus İsayev qonağı salamlayıb və ustad dərslərin keçilməsinin nəzəri və təcrübi əhəmiyyətini qeyd edib. Rektor universitetin İncəsənət fakültəsinin malik olduğu imkanlardan danışaraq diqqətə çatdırıb ki, fakültədə yaradılacaq elektron filarmoniya gələcəkdə bu cür onlayn tədbirlərin keçirilməsində faydalı olacaq.

Sonra almaniyalı professor Y. Hayd, V.A.Motsart və L.Bethovenin bir neçə sonatasının nümunəsində ştrixlər, nüanslar, temp, eyni zamanda obraz üzərində çalışmaq qaydalarını izah edib.

Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının müdiri, sənətşünaslıq elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi İnara Məhərrəmova bildirib ki, fakültə özündə Musiqişünaslıq, Xalq çalğı alətləri ifaçılığı, İnstrumental ifaçılıq, Solooxuma, Bəstəkarlıq, Dirijorluq, Aktyor sənəti, Musiqi müəllimliyi, Təsviri incəsənət müəllimliyi, Rəngkarlıq ixtisaslarını birləşdirir.

Müəllim və tələbələrin sualları cavablandırıldıqdan sonra Fortepiano kafedrasının müəllimi Ülvi Əhmədov IV kurs tələbəsi Səxavət Rəhimov ilə birgə Tofiq Quliyevin "Qaytağı" musiqisini ifa ediblər.

Sonda rektor almaniyalı pianoçuya onlayn dərsin keçilməsinə görə minnətdarlıq edib. Vurğulanıb ki, bu cür tədbirlərin keçirilməsi bir ənənə halını almalı, birgə fikir və təcrübə mübadiləsi aparılmalıdır.

Qeyd edək ki, ustad dərsində alman dilindən tərcüməni Naxçıvan Dövlət Universitetinin məzunu, Brandenburq Universitetinin tələbəsi Gülər Nuri edib.

Səadət ƏLİYEVA

Yaşıllıqlara aqrotexniki qulluq göstərilib

Son illər muxtar respublikamızda yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi muxtar respublikanın hər bir guşəsində keçirilən və naxçıvanlıların vətəndaşlıq borcuna çevrilən iməciliklər nəticəsində mümkün olub. Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilməkdə, meyvə bağlarının, yaşıllıq zolaqlarının, gülkarlıq sahələrinin həcmi genişləndirilməkdədir.

İyul ayının 4-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu. Həmin gün Naxçıvan şəhərinin sakinləri tərəfindən "Duzdağ" otelinə gedən yolun kənarlarında, Sərhəd Qoşunlarının və Tumbul kəndinin yaxınlığındakı iməcilik sahələrində, həmçinin dairəvi yolun kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərilib, suvarma, ağartma və budama işləri görülüb.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri Püsyan kəndindəki 7 hektarlıq meyvə bağında, müəssisə və təşkilatların ərazilərində ağaclara aqrotexniki qulluq göstərib, suvarma işləri görüblər.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Sirab və Kültəpə kəndlərinə gedən yolun kənarlarında, ümumilikdə, 9 hektar sahədə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, ağacların quru budaqları budanıb və gövdələri ağardılıb.

Bağlar diyarı Ordubad rayonunun Düylün-Aza kəndləri arasındakı avtomobil yolunun kənarlarında 5 hektarlıq ərazidə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, 1,7 hektarlıq üzüm bağında dayaqlar basdırılıb, 4 hektarlıq qızılgül bağı alaq otlarından təmizlənib, suvarma işləri görülüb.

Culfa rayonu ərazisindəki, iməcilik sahələrində ağacların dibləri alaq otlarından təmizlənib və suvarma işləri aparılıb.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun Böyükdüz, Kərki və Xok kəndləri hissəsində yolkənarı yaşıllıq sahələrində, Qabıllı kəndində Günəş Elektrik Stansiyasına gedən yolun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilib, arxların otları təmizlənib, ağartma və budama işləri görülüb.

Şahbuz rayonunda Naxçıvan-Şahbuz-Batabat magistral yolunun Mərəlik kəndi hissəsindəki 3 hektarlıq üzüm bağı alaq otlarından təmizlənib, Nursu kəndinə gedən yolun kənarlarındakı otlar biçilib, ağacların gövdələri ağardılıb, suvarma işləri aparılıb.

Sədərək rayonunda Naxçıvan-Sədərək magistral yolunun kənarlarında 5 kilometr məsafədə ağacların dibləri alaq otlarından təmizlənib, budama işləri görülüb, müəssisə və təşkilatların ərazilərində yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

İməciliklərdə, ümumilikdə, 18 min 238 nəfər iştirak edib.

Xəbərlər şöbəsi

Milli dəyərlərimizi öyrənək və yaşadaq

Qədim köklərə malik saz, söz sənətimiz layiqincə yaşadılır

Azərbaycanın professional musiqisinin şifahi irsini təşkil edən aşıq sənəti, əsrlərin süzgəcindən keçərək formalaşmış, xalqımızın mədəni ənənələrinin və tarixi köklərinin bir növ daşıyıcısına çevrilmişdir. Qədim ozan-aşıq sənəti həm də Azərbaycan şifahi xalq ədəbiyyatının ən zəngin qolunu təşkil edir.

Müasir aşıq sazının sələfi sayılan üçsimli "qolça qopuz" isə Azərbaycan türklərinin istifadə etdikləri ən qədim simli musiqi aləti hesab olunur. "Kitabi-Dədə Qorqud" dastanında qolça qopuz bir neçə adda təqdim olunur. Kitabda adları çəkilən "quruluca qopuz", "alça qopuz" ayrı-ayrı alətlərin deyil, eyni bir alətin müxtəlif cəhətlərini açıqlayır. Əbdülqadir Marağayi "Məqasid əl-əlhan" əsərində qopuzun iki növünün – "rumlular qopuzu" və "ozan qopuzu"nun quruluşu barədə məlumat verib.

"Qopuz" sözünün etimologiyasına baxsaq, görərik ki, "qop" qədim türkcədə "ucalıq", "yüksəklik", uz isə "avaz", "sehrli musiqi ahəngi" anlamını verir. Tarixi və etnoqrafik məlumatlara görə, qopuz türk xalq söyləyicilərinin, əsasən, qəhrəmanlıq nəğmələrini, dastanları ifa zamanı istifadə etdikləri başlıca simli musiqi aləti olub, kütləvi şənliklərdə, toy-düyünlərdə çalınırdı. Elin müdrik ağsaqqalı Dədə Qorqud oğuznamələr söyləyir, düzüb-qoşur, gənclərə öyüd-nəsihətlər verir, qəhrəmanlıq göstərən ərənləri öyürdü. Müdrik ozanın döyüşə gedənləri qopuza and verməsi, ona yadların əl vurmasına icazə olmaması kimi misallar bu alətin türk xalqları üçün müqəddəs hesab edildiyini sübut edir.

Qopuz bir musiqi aləti kimi əsrlərboyu təkmilləşərək öz yerini tədricən saza verib. Saz mizrabla çalınan musiqi alətidir. Onlar ölçülərinə, pərdələrin və simlərin sayına görə üç yerə bölünür: 4-6 simi olan cürə saz, 6-7 simi olan qoltuq saz, 8-9 simi olan ana saz və meydan sazı adlanan tavar sazdır. Əksər hallarda Azərbaycan aşıqları səkkiz və yaxud doqquzsimli sazdan istifadə edirlər. Saz

aləti kəllə, qol və çanaq adlanan üç hissədən ibarətdir. Mərhum professor Məmmədhüseyn Təhmasib isə onun hazırda az işlənən və qədim türk sözü olan "aş"dan törədiyini iddia edib. Tarixi məlumatlara istinad etsək, onu XVI əsrdə geniş yayılmış hərbi himnlərlə əlaqələndirə bilərik. Belə ki, türkü adlanan bu türkü-himnlərin yaradıcılarını "aşıq" adlandırırdılar. Sonralar fəxri "aşıq" adı saz-söz sənətkarlarının adına əlavə olunub. Saz artıq Şah İsmayıl Xətainin dövründə indiki şəklini almışdı. Şah İsmayıl Xətainin könül oxşayan qoşmalarının birində saz belə tərənnüm edilir:

Bu gün ələ almaz oldum mən sazım
Ərşə dirək-dirək çıxar mənim avazım
Dörd iş vardır hər qarındaşa lazım
Bir elm, bir kəlam, bir nəfəs, bir saz.

Naxçıvanda da aşıq musiqisinin tarixi çox qədimdir. Professor, Azərbaycan Yazıçılar Birliyi və Aşıqlar Birliyinin üzvü Yusif Səfərov qələmə aldığı "Naxçıvan aşıqları və el şairləri" kitabında qeyd edir ki, Naxçıvan aşıq mühiti keçdiyi inkişaf mərhələlərində öz yaradıcı ənənələri və tanınmış sənətkarları ilə Azərbaycan aşıq sənətinə dəyərli töhfələr verib.

Ağ Aşıq Allahverdi Kosacanlı, Aşıq Süleyman, Aşıq Əli, Xanxanımoğlu, Aşıq Fətulla, Aşıq Nabat, Aşıq Cəlil, Aşıq Məmmədcəfər, Qonçabəyim, çobankərəli Aşıq Cəfər, Allahverdi Əliyev, Aşıq Bəhman, Aşıq Nəcəfalı, Aşıq Mirzalı, Aşıq Hidayət, Aşıq Həmid, Kazım Abdullayev, Aşıq Əbülfəz, Aşıq Həmid, Aşıq Bayraməli, Aşıq Ehsan, Aşıq Əzim, Aşıq Vəli, ordubadlı Kərim, Aşıq Abbas Dəhri, Məmmədxan Məmmədov, Aşıq Həbib kimi Naxçıvan mühitinin yetirməsi olan aşıqlar ölkəmizdə və onun hüdudlarından kənarda şöhrət qazanıb, tanınıblar.

Azərbaycan aşıq musiqisinin "Ağır şərili", "Orta şərili", "Yüngül şərili", "Cəlili", "Baş cəlili", "Orta cəlili", "Naxçıvan gülü", "Naxçıvani", "Ordubadi", "Dərələyəz gəraylısı" və digər saz və aşıq havaları Naxçıvan aşıq mühiti ilə bağlı yaranıb.

Müstəqillik illərində aşıq sənətinin tədqiqi yeni mərhələyə qədəm qoydu. Belə ki, Naxçıvan folkloru nümunələri əsasında "Azərbaycan folkloru antologiyası"nın ilk cildi çap olundu. Aşıq sənətinin YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsi isə bu sənətin inkişafı üçün daha əlverişli mühit yaratdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamı da diyarımızda aşıq sənətinin inkişafı, tədqiqi, təbliği, dəyərli nəşrlərin işıq üzü görməsi işində canlanma yaratdı və nəticədə, bu sənət özünün ən yüksək inkişaf dövrünü yaşayır.

Muxtar respublikamızda Xalq yaradıcılığı günlərinin keçirilməsi ilə bağlı Ali Məclis Sədrinin imzaladığı müvafiq sərəncamın icrası istiqamətində atılan mühüm addımlardan biri də Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin yaradılması oldu. Birliyin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Tural Bağırovla söhbətimiz zamanı qeyd etdi ki, bununla diyarımızda aşıq sənətində yeni inkişaf mərhələsi başladı və bu sahənin inkişafına göstərilən qayğı Naxçıvan aşıqlarının yaradıcılıq imkanlarını daha da genişləndirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Musiqi Kollecinin Aşıq sənəti ixtisası üzrə təhsil alan tələbələrinin hamiliyə götürülməsi, istedadlı aşıqların yetişdirilməsi və bu qədim sənətin yaşadılması baxımından çox təqdirəlayiqdir.

Həmsöhbətim bildirdi ki, Aşıqlar Birliyi öz işini günün tələbləri çərçivəsində qurmağa çalışır. Birliyin üzvləri tələbələrin fəallığının artırılması məqsədilə mütəmadi olaraq kollecdə onlarla görüşlər təşkil edir, ustad dərsləri keçirlər.

Tural Bağırov söylədi ki, hazırda birliyin 30 üzvü var. Hər il olduğu kimi, birliyə üzv olmaq üçün müraciət edən aşıqlar da az deyil. Ötən illərdə olduğu kimi çalışırıq ki, bura gənc və istedadlı aşıqları cəlb edək. Musiqi Kollecinin Aşıq sənəti ixtisası üzrə təhsil alan 5 tələbəsinin bu gün sıralarımızda təmsil olunması da bunun nəticəsidir. Həmçinin birliyimizin üzvləri muxtar respublikamızda keçirilən xalq mərasimlərində, eyni zamanda dövlət səviyyəli tədbirlərdə fəal iştirak edirlər.

Müsahibim onu da qeyd etdi ki, bu gün Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində, Naxçıvan Musiqi Kollecində, bütün musiqi məktəblərində saz siniflərinin fəaliyyət göstərməsi təqdirəlayiq haldır. Bu, Naxçıvanda qədim köklərə malik aşıq sənətinin inkişafına göstərilən qayğının bariz nümunəsidir. Bu gün Naxçıvan aşıqları yaradılan şəraitdən yararlanaraq yaradıcılıqlarını aşıq sənətinin tarixi, sənətkarlıq xüsusiyyətlərini dərindən öyrənməklə davam etdirirlər.

Naxçıvan ta qədimdən igidlər oylağı, mərd insanlar məkanı və onları tərənnüm edən saz, söz, sənət yurdu olub. Qədim Oğuz yurdunda tarixən inkişaf edən aşıq sənəti özündə qəhrəmanlıq, alicənablıq, xeyirxahlıq kimi ali dəyərləri yaşadıb və zamanla cilalanaraq müasir səviyyəyə çatıb. Bu gün haqqında fəxrlə söhbət açdığımız aşıq sənəti həm də folklorumuzun zənginliyinin təsdiqidir. Bu sahədə görülən işlərə əsaslanıb əminliklə qeyd etmək olar ki, bu gün muxtar respublikamızda aşıq sənətinin inkişafı yüksək səviyyədədir və bu sənət sahəsi layiqincə yaşadılır.

Pərviz HACILI

Naxçıvan Muxtar Respublikası üzrə 6 iyul 2020-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

S/№	Şəhər və rayonlar	Biçiləcək taxıl sahəsi (hektar)	Biçilən taxıl sahəsi (hektar)	Məhsul istehsalı (ton)	Məhsuldarlıq (sentner/hektar)
1.	Naxçıvan şəhəri	1028	402	1183	29,4
2.	Şərur rayonu	4865	2936	10556	36,0
3.	Babək rayonu	11767	5830	18247	31,3
4.	Ordubad rayonu	1804	1727	4926	28,5
5.	Culfa rayonu	7589	4864	12685	26,1
6.	Kəngərli rayonu	5906	3871	11399	29,4
7.	Şahbuz rayonu	1563	86	240	27,9
8.	Sədərək rayonu	2357	1734	6310	36,4
Naxçıvan Muxtar Respublikası üzrə cəmi:		**36879**	**21450**	**65546**	**30,6**

Naxçıvan xalçaları üzərindəki həndəsi ornamentlər

Naxçıvanda tarixi çox qədimlərə gedib çıxan xalçaçılıq sənəti nümunələrinin böyük əksəriyyətində, demək olar ki, həndəsi motivlərə rast gəlinir. Mənbələrin verdiyi məlumata görə, uzaq keçmişdə həndəsi naxışlar ibtidai insanlar arasında ilk yazı, yəni izahat forması olmuşdur. Tanınmış sənətşünas alim, akademik Rasim Əfəndiyev qeyd edirdi ki, "Bir çox həndəsi ornamental formalar, düz, qırıq, dalğavarı xətlər, üç, dörd, səkkiz, onikiguşəli ulduzlar, üçbucaq, dördbucaq, dairə və sair çox qədimlərdən inkişaf edərək ənənəvi şəkil alıb, bu günədək öz mahiyyətini itirməmiş və son zamanlara qədər sənət əsərləri üzərində dönə-dönə işlənir".

Qeyd edək ki, xalçalar üzərindəki həndəsi ornamentlər digər sənət əsərləri üzərində olduğu kimi, sadə, mürəkkəb və ya sadə ulduzlu formada olmaq şərti ilə iki yerə ayrılır. Sadə həndəsi naxışlar sırasına düz, sınıq və dalğavarı xətlərdən ibarət, həmçinin Günəşin, Ayın, ulduzların təsvirini əks edən rəsmləri daxil etmək olar. Xalçalar üzərində naxışlanan paxlava və ya romb kimi ornamentlər də həndəsi təsvirlərə aiddir. Paxlava içərisində işlənmiş 4 ədəd üçbucaq gecə və gündüzü, 4 istiqaməti – cənub, şərq, qərb və şimalı, 12 ədəd quş başı ildə 4 fəsli və hər fəsildə 3 ayı ifadə edir. Bəzi mənbələrə görə, dördlük – yeli, suyu, torpağı, odu bildirir.

Xalçalar üzərində daha geniş yer alan həndəsi ornamentlərdən biri də üçbucaq rəsmidir. Bu rəsm möhkəmlik, dəyişməzlik və dayanıqlılıq anlayışlarını ifadə edir. Tədqiqatçılara görə, insan və kainat üçbucağın küncləri kimi möhkəm əlaqəyə malikdir. Təpə nöqtəsi yuxarıya baxan üçbucaq göyün, aşağıya baxan üçbucaq isə yerin simvolu sayılır. Bunların iç-içə keçməsi səmavi möcüzələrin yer üzündə ortaya çıxmasını ifadə edir. Üçbucaqlar Türk və İslam mədəniyyətində, incəsənətində geniş yayılmış ornamental təsvirlərdən biridir. Bu naxış digər sənət sahələrində olduğu kimi, xalça və toxuculuq sənətinin bütün nümunələri üzərində də yer almaqdadır.

Xalçalar üzərində altı və səkkizguşəli ulduz rəsmlərinə də rast gəlinir. Bu rəsmlərdə altıguşəli ulduz ata, ana, uşaq, göy, kainat, axirət mənasını ifadə edir. Qeyd edək ki, xalçalarımızla yanaşı, digər sənət nümunələri üzərində də altıguşəli ulduz rəsminə rast gəlinir. İslami bilgilərdə bu işarə müqəddəs hesab edilir.

Naxçıvanda toxunan xalçaların yelənlərini ortada toxunmuş göllərdən və ara sahələrdən ayırmaq üçün daha çox dalğavarı xətlərdən istifadə edilir. Həmçinin iki və ya üç yelənlə toxunmuş naxışlarda onları bir-birindən ayırmaq üçün aralara da dalğavarı xətlər salınır. Bu motiv sadə həndəsi ornamentlərdən biri kimi dəyərləndirilir. Qədim zamanlarda Orta Asiyada, Yaxın Şərqdə, eləcə də Azərbaycanda suyu həyatın ən lazımlı şərtlərindən qəbul edərək onu xalçalar və digər sənət əsərləri üzərində balıq, quş, ördək formasında təsvir edirdilər. Axar suyu isə düz və ya dalğalı xətlərlə göstərirdilər. Naxçıvanda Möminə xatın türbəsinin sütunları üzərində "miandra" və ya yağış damcıları təsvir olunub. Tədqiqatçıların fikrincə, hər iki ornament su mifi ilə bağlıdır. Naxçıvan xalçalarının kənar yelənləri üzərində işlənmiş və memarlıqda da "miandra" adı ilə tanınan "S" formalı naxış xalçalarda "su" elementinin rəmzidir. Bir çox kompozisiyalarda su elementi bitki elementi ilə birlikdə işlənir.

Nəticə olaraq qeyd etmək olar ki, xalçalarımız, sadəcə, maddi mədəniyyət nümunəsi deyil, həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli sənət əsərləridir.

Sara HACIYEVA
tarix üzrə fəlsəfə doktoru, dosent

İtmişdir

Həsənova Sabirə Hüseyn qızının adına olan evin 9797 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Cəhri kənd sakini Quliyev Abbas Yusif oğlunun adına olan JN-2135[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Abbasov Məmməd Abbas oğlunun adına olan evin 4271 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 495